# Sülhə xidmət edən forum

## Beynəlxalq toplantılara layiqli evsahibliyi Azərbaycanın nüfuzunu yüksəldir

**"VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda 110-dan artıq ölkənin nümayəndəsinin iştirakı onun çox əhəmiyyətli bir tədbir olduğunu aydın göstərir. Bunun Bakıda keçirilməsi isə yeni məna kəsb edir. Düşmən üzərində tarixi qələbə qazanan, dinamik iqtisadi inkişaf yolunda olan Azərbaycan bu gün dünyanın ictimai-siyasi sabitlik baxımından ən təhlükəsiz ölkələrindəndir".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət ölkənin inkişafını, sabitliyini təmin etməklə bərabər, beynəlxalq aləmdə yüksək nüfuz qazanmasına, sülhsevər dövlətlər tərəfindən ədalətli mübarizəmizin dəstəklənməsinə, söz sahibi olmağımıza zəmin yaradıb. Həm də son illər Azərbaycan çox mühüm beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edib, onların təşkilində zəngin təcrübə qazanıb. Bu da ölkəmizin dəyərini qat-qat artırıb. Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da bunu bir daha təsdiq etdi.

Deputat qeyd edib ki, forumun bu gün bəşəriyyəti düşündürən və narahat edən çox vacib bir məsələyə - sülhə və təhlükəsizliyə həsr edilməsi təsadüfi deyil: "Çünki dünyada baş verən müharibələr, qarşıdurmalar, yeni müharibə ocaqlarının yaradılmasına göstərilən cəhdlər sülhsevər insanları, dövlətləri ciddi düşünməyə və tədbirlər görməyə vadar edir. Azərbaycanda uzun illər bu bəlaların ağrı-acısını yaşayıb, torpaqları erməni təcavüzkarları tərəfindən işğal olunaraq şəhər və kəndləri viran edilib, on minlərlə vətəndaşı qətlə yetirilib, şikəst olub, əsir götürülüb. 30 ildən çox müharibənin çətinliklərini yaşayan Azərbaycanın haqlı mövqeyi təəssüflər olsun ki, beynəlxalq aləm, təşkilatlar, böyük dövlətlər tərəfindən lazımınca dəstəklənməyib. Nəhayət, Ali Baş Komandan cənab İlham Əliyevin düşünülmüş siyasi gedişləri, ordumuzun şücaəti, xalqımızın birliyi nəticəsində düşmən torpaqlarımızdan çıxarıldı, suverenliyimiz tam bərpa olundu. Qalib dövlətimizin rəhbəri müharibədən əvvəl, döyüşlər getdiyi zamanda, eləcə də bu gün sülhə, əmin-amanlığa sadiqliyini dəfələrlə bəyan edib və forumdakı çıxışı bunu bir daha təsdiqlədi".

Komitə sədri xatırladıb ki, Prezident Bakı Forumunu çox mühüm beynəlxalq platforma adlandırmaqla və burada mədəniyyətlərarası məsələlərin müzakirə olunmasına böyük önəm verməklə qeyd edib ki, "çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik Azərbaycan cəmiyyəti əsrlər boyu mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlığı qoruyub. Tolerant mühitin məkanına çevrilən Odlar diyarımız Azərbaycan sülhsevər dövlət olaraq özünəməxsus mesajlarını dünya ölkələrinə göndərir". Bu, əlbəttə sülhdür, əmin-amanlıqdır, dostluq-qardaşlıqdır, müxtəlif millətlərin və etnik qrupların dilinin, dininin və mədəniyyətinin inkişafı və qorunması ilə bağlıdır.

Dövlət rəhbərinin bildirdiyi kimi, Azərbaycan cəmiyyətində sülhün, sabitliyin, həmrəyliyin amillərindən biri məhz mədəni müxtəliflik və qarşılıqlı hörmətdir.

Məhz bu amillər Azərbaycana qələbə, uğurlar qazandırır. "Prezidentimizin məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə yaradılan ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, tolerant mühit, xalqların və millətlərin qardaşlığı, dinlərə, mədəniyyətlərə hörmət uğurlarımızı artırır, iqtisadiyyatımızı inkişaf etdirir, gələcək xoşbəxt həyatımıza zəmin yaradır. Sülh amalı ilə mübarizə aparan dövlətimiz haqlı olaraq dünyanın diqqət mərkəzindədir və ölkənin hər bir vətəndaşı bundan qürur duyur", - deyə T.Rzayev bildirib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 4 may, № 91.- S.8.